**“Səs”.-**2009.-4 iyun.-N.102.-S.4.

# Müstəqil Azərbaycanda dövlət quruculuğu

## Ulu öndər Heydər Əliyev irsinin milli sərvətə çevrilməsi Azərbaycan tarixində xidmətlərinin məntiqi nəticəsidir

Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin dövlətçilik fəaliyyəti və zəngin siyasi irsi xalqımızın taleyində intensiv və dinamik inkişaf prosesinin hərəkətverici qüvvəsi kimi Qafqazda böyük bir coğrafiyanı əhatə edir. Tarixi şəxsiyyətin yorulmaz, məqsədyönlü, ardıcıl və qətiyyətli mübarizəsi nəticəsində ölkəmiz hərtərəfli inkişafa nail oldu. Ölkənin inkişafı üçün əsas şərt olan ictimai-siyasi sabitlik, sülh və əmin-amanlıq yaradıldı, demokratiyanın inkişafı, hüququn aliliyi, beynəlxalq birliyə inteqrasiya, bazar iqtisadiyyatı və vətəndaş cəmiyyəti quruculuğuna keçid prosesini gerçəkləşdirmişdir. Heydər Əliyevin siyasi fəaliyyətində bəşəri dəyərləri, azərbaycançılıq ideyalarının əməli istiqamətini belə şərh edir: “...Biz düz yolla - haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır...”

Milli dövlətçilik mədəniyyətinin formalaşdırılması dünyanın siyasi arenasında müstəqil subyektə çevrilmiş Azərbaycanda Heydər Əliyev irsinin milli sərvətə çevrilməsi fenomen şəxsiyyətin xalqın həyatında tarixi xidmətlərinin məntiqi nəticəsidir. Bununla yanaşı, milli dövlətçilik ənənəsinin, dövrün, şəraitin tələblərinə uyğun sistemli inkişaf modelinə uyğun qurulması müstəqil Azərbaycan Respublikasının gələcək taleyini müəyyənləşdirdi. Sovet siyasi təfəkküründən irəli gələn kollektivçilik vərdişinin fərdi idarəçiliklə əvəzlənməsi meyilinin Heydər Əliyevin dövlətçilik fəaliyyətində geniş yer aldı. Ulu öndər Heydər Əliyev uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın yenidən qurulması, malik olduğu təbii resurslarından səmərəli istifadə edilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi uğurlu neft strategiyasının nəticəsi idi. Bu siyasi gedişatın Azərbaycanın maraqları çərçivəsində həyata keçirilməsi genişmiqyaslı siyasi və iqtisadi islahatların aparılmasını gücləndirdi. “Mən Azərbaycan Prezidenti kimi bu barədə qəti fikrimi bildirmişəm və bir də bəyan edirəm ki, demokratiyanın bütün tələblərini tətbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə, mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin qarşısı alınacaqdır və qanun çərçivəsində ölçülər götürüləcəkdir” deyən dahi öndərin demokratiyaya milli maraqlar, milli-mənəvi dəyərlər kontekstində yanaşması ilə ölkəmizdə yeni tarixi mərhələnin əsası qoyuldu.

Demokratik, hüquqi, dünyəvi dövlətin formalaşdırılması, milli maraqlarımıza uyğun olaraq Dağlıq Qarabağ probleminin həlli, ölkə əhalisinin dinc və firavan həyat şəraitində yaşamasını təmin etmək kimi mühüm tarixi vəzifələri özünün ali proqramı müəyyən etmiş ulu öndər Heydər Əliyev 1995-ci ildə Konstitusiyanın qəbul olunmasına nail olmaqla, ölkəsinin əsas hüquqi, dünyəvi dövlətçilik modelini yaratdı. Bütövlükdə qəbul olunmuş yeni Konstitusiya ümumxalq mənafeyinin əsas hüquqi bazası kimi, müasir dünyanın geopolitik nəzəri əsasları üzərində qurulması və strateji milli maraqların əsas qanunda əksini tapması Azərbaycanın gələcəyinə hesablanmış prinsipləri özündə əks etdirmişdir. Bu baxımdan da, Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində hüquq prinsiplərinə söykənməsi, hələ XX əsrin 70-ci illərinə təsadüf edir. Obyektiv tarixi zərurətlə şərtlənən Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi, Azərbaycan milli dövlətçilik mədəniyyətinin formalaşmasının təmin olunmasına hesablanmışdı. Həyatın bütün sahələrini əhatə edən çoxşaxəli fəaliyyət istiqamətinə uyğun olaraq milli mənəviyyatın təşəkkül tapması, tarixi soykökə qayıdış, azərbaycançılıq dünyagörüşünün dövlətçilik siyasətinin ana xəttini təşkil etmişdir. Bununla yanaşı, millətini sevən, xalqının sabahını düşünən müxtəlif səviyyəli insanların dövlətçilik işinə səfərbər edilməsi, onların bilik və bacarıqlarının vahid ideya ətrafında cəmlənməsi, məhz Heydər Əliyevin idarəçilik fəaliyyətində geniş yer verilməyə başlanıldı.

Müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən 14 iyun 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıcı kimi daxil olmuşdur. Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il plenumunda qarşıya qoyulan fundamental strateji istiqamətlər müəyyənləşmiş inkişaf, tərəqqinin real maddi və milli-mənəvi nəticələri sonrakı müstəqillik dövrünün sosial-iqtisadi bazasına çevrildi. 1920-ci ildən dəfələrlə Azərbaycan MK-nın dəyişən rəhbərliyi 1969-cu il 14 iyun tarixinə kimi keçirdiyi böhranlı illər dayandı. Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi təyin olunduğu an tariximizin yeni dövrü, Azərbaycanın sosial - iqtisadi həyatında inkişafın bünövrəsi qoyuldu. 1969-cu il avqustun 5-də Azərbaycan KP MK-nın plenumunda etdiyi tarixi çıxış imperiya rəhbərliyini təşvişə salmışdı. Azərbaycanın o dövrdəki neqativ reallıqlarını təhlili, bütünlüklə sovet cəmiyyətini bürüyən rüşvətxorluq, korrupsiya hallarının etiraf olunması, ittifaq ölkəsində böyük hadisəyə çevrildi. Plenumda Heydər Əliyev o dövr üçün çox cəsarətli ideyalar irəli sürdü, dəqiq fəaliyyət proqramı müəyyənləşdirdi.

Əsas hədəflərdən biri tikinti-quruculuq işlərinə geniş meydan verilməsi idi. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə məşhur avqust plenumunun keçirilməsi ölkədəki iqtisadi vəziyyətin təhlili üçün yeni imkanlar açdı. Ölkədəki acınacaqlı vəziyyət, əhalinin məmurlar tərəfindən əsassız olaraq incidilmə hallarının, rüşvət və korrupsiyanın qarşısının alınması üçün mühüm tədbirlər hazırlandı. Dövrün statistik göstəricilərinin ilbəil azalması, rəhbərliyin səriştəsizliyi ölkənin zəhmətkeş kütləsinin həyat tərzini pisləşdirmişdi. Həmin dövrdə

Azərbaycan ittifaq respublikaları arasındakı iqtisadi göstəricilərinə görə geri qalırdı. Zəngin təbii sərvətlərə malik bir torpağın üzərində gəzən azərbaycanlının, sərvəti özünün yox başqalarının mənafeyinə xidmət edirdi. Bu məsələlər kimi aktual hesab olunan iqtisadi tənəzzülün dayandırılması daha yeni formada Heydər Əliyev tərəfindən əhatəli quruculuq yoluna qədəm qoydu. Tezliklə ölkədə adambaşına ümumdaxili məhsul 2,5 dəfə, sənaye istehsalı 3 dəfə, kənd təsərrüfatı məhsulu iki dəfə artdı. Bununla yanaşı, 1969-cu ildən 1982-ci ilə qədər ölkədə 250 zavod, fabrik və sex tikilərək, 2 milyondan artıq vətəndaşın mənzil təminatı həll olundu. Pambıq istehsalı 333,6 min tondan 831,2 min tona çatdırıldı, 1982-si ildə ölkədə pambıq istehsalı 1 milyon civarına qədər yüksəlmişdi. Üzüm istehsalında statistik vəziyyət göstəricisinə görə 1980-ci ildə 1,5 milyon ton olduğu halda 1969-cu ildəki bu göstəricidən 5-6 dəfə yüksək idi. 1969-1982-ci ildə Azərbaycan iqtisadiyyatında olan dirçəliş və inkişaf o dövrün son əlli il vəziyyətinə görə 1,4 dəfə çox vəsait sərf olunmuşdu. Azərbaycan ittifaq ölkələrindən fərqli olaraq, SSRİ məkanında iki respublika - Rusiya Federasiyası və Azərbaycan dotasiya olmadan yaşayırdı. Bu dövrdə Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyinin siyasi-iqtisadi əsaslarını yaratdı.

Azərbaycanın şəhər və kəndlərində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 min nəfərə çatdırılmışdır. Əsası qoyulan dəyərli ənənələr sırasında respublikada zəruri ixtisaslara yiyələnmələri üçün azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi praktikası xüsusi yer tutub. Əgər 1969-cu il üçün Azərbaycandan kənarda təhsil almağa cəmi 47 nəfərin göndərilməsi planlaşdırılırdısa və bunların əksəriyyəti qeyri-azərbaycanlı olurdusa, artıq ötən əsrin 80-ci illərinin əvvəllərində 1000-1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi və onların böyük əksəriyyəti azərbaycanlılar təşkil edirdi.

Qlobal işləri təhlil edən Rusiya analitikləri bu nəticəyə gəliblər ki, Heydər Əliyev hələ o illərdə SSRİ-nin tezliklə dağılacağını və Azərbaycanın müstəqil dövlət olacağını görürmüş. Bu nəticə son 30 illik tarixi inkişafımızın real yekunu ilə bir daha təsdiqlənir və Heydər Əliyevin fenomeninin böyüklüyünü bütün dünyaya nümayiş etdirir.

Müstəqillik çağırışları hələ 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etməyə başlamışdır. İqtidarın və Xalq Cəbhəsi liderlərinin başı hakimiyyət, vəzifə uğrunda mübarizəyə qarışdığı bir vaxt Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edirdi. Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarılaraq, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağı dövlət bayrağı kimi qəbul edildi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırıldı. Ulu öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasında çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etdi, böhranın, habelə, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar Ermənistana qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etdi. 18 oktyabr 1991-ci ildə bünövrəsi qoyulan, 15 iyun 1993-cü ildə məhvolmadan xilas edilən müstəqil Azərbaycanın milli qurtuluş tarixindən sonra real sabitlik yoluna qədəm qoydu. 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanı dağılmaq, parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi...

**Elşad HACIYEV**